DÖVLƏT VERGİ XİDMƏTİ

# “ƏDV geri al” sistemində dəyişikliklər edilmişdir

Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara görə ödənilmiş ƏDV-nin qaytarılması mexanizmi **tibbi xidmətlərə də aid edilmişdir**.

❗ **Avtomobillərin, 2022-ci il oktyabrın 1-dən isə alkoqollu içkilərin və tütün məmulatlarının da alışına görə ödənilən ƏDV geri qaytarılmayacaqdır.**

❖ NKA-nın çekində aşağıdakı məlumatların əks olması tələb olunur, əks halda bu çeki təqdim edən satıcının məsuliyyətə cəlb edilməsinə səbəb olmaqla yanaşı, ödənilmiş ƏDV-nin alıcıya qaytarılmasından imtinaya əsas verir:

- vergi ödəyicisinin adı;
- VÖEN-i;

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

## Nə dəyişdi?

ƏDV-nin qaytarılması mexanizmi avtomobillərin, alkoqollu içkilərin və tütün məmulatlarının alışına aid edilirdi, göstərilən tibbi xidmətlərə isə aid edilmirdi.

❖ **01.01.2022-ci il tarixdən etibarən** göstərilən tibb xidmətləri sahəsində dövriyyələrin şəffaflaşdırılması və bu prosesdə vətəndaşların birbaşa iştirakı məqsədi ilə pərakəndə ticarət və ictimai iaşə fəaliyyəti ilə yanaşı, tibbi xidmətlərinin göstərilməsi sahəsində də “ƏDV gerial sistemi” tətbiq edilir.

Alkoqollu içkilər və tütün məmulatlarının əhalinin sağlamlığına mənfi təsir göstərən zərərli məhsullar olduğunu nəzərə alaraq bu məhsullar üzrə ƏDV-nin geri qaytarılması şəklində stimullaşdırıcı tədbirlərin tətbiq edilməsi məqsədəmüvafiq hesab edilməmişdir.

BAKI — 2022

- çekin vurulmasının tarixi və saatı;
- təsərrüfat subyektinin (obyektinin) adı, vergi orqanındakı uçot kodu və yerləşdiyi ünvan;
- malın və ya xidmətin (işin) adı, ölçü vahidi, miqdarı, bir vahidinin qiyməti və yekun məbləğ (o cümlədən ƏDV-nin və ya sadələşdirilmiş verginin məbləği);
- gün ərzində vurulmuş çeklərin sayı və nömrəsi;
- NKA-nın markası və zavod nömrəsi;
- NKA-nın fiskal rejiminin nişanı (əlaməti);
- malın sürətli məlumat kodu (Quick Response Code);
- ödənilmiş məbləğ;
- müştəriyə qaytarılan məbləğ (malın dəyərindən artıq ödənilən hissə üzrə);
- nisyə satış zamanı ödəniləcək məbləğ (qalıq borc);
- ödənişin forması və üsulu (nağd və ya nağdsız, avans (beh), nisyə, bonus, hədiyyə kartı və digər bu kimi ödəmələr);
- çekin növü (satış, geri qaytarma və ya ləğvetmə);
- nəzarət mexanizmi qurğusunun qeydiyyat nömrəsi;
- geri qaytarma çekində satış çeki üzrə fiskal əlamətlərdə təsvir olunan simvollar.

❖ Digər tələblərlə yanaşı yuxarıda sadalanan məlumatları özündə əks etdirməyən NKA çekini təqdim edən vergi ödəyicilərinə **təqvim ili ərzində belə hallara**

- **birinci dəfə** yol verildikdə **1.000** manat
- **ikinci dəfə** yol verildikdə **3.000** manat
- **üç və daha çox dəfə** yol verildikdə **6.000** manat

məbləğində **maliyyə sanksiyası tətbiq edilir**.

❖ Fiziki şəxs olan istehlakçılar eyni binadan bir və ya bir neçə yaşayış və (və ya) qeyri-yaşayış sahələrini aldıqda, **ƏDV-nin qaytarılması** respublika ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış sahəsinin **500 kvadratmetr** və qeyri-yaşayış sahəsinin **500 kvadratmetrdən çox olmayan hissəsinə mütənasib ödənilmiş ƏDV-yə tətbiq edilir**.

❖ Ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən respublika ərazisində alınmış, istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş ƏDV-nin qaytarılması mexanizmi ləğv edilmişdir.